

# Dost dəstəyi

**Dörd ildən çoxdur işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı abadlıq, quruculuq işləri gedir. Qısa zamanda görülən bu işlərin miqyası isə heyrətamizdir - 30 ilə yaxın müddətdə erməni vəhşiliyinin qurbanına çevrilən, dağıdılan, hətta yerlə bir edilən kəndlər, şəhərlər sıfırdan qurulur, yeni, modern üslubda yaşayış məntəqələri salınır, infrastruktur yaradılır, yollar çəkilir, dağıdılan dini, tarixi abidələrimiz bərpa olunur.**

Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasına yerli şirkətlərlə yanaşı, xarici investorlar da böyük maraq göstərirlər. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) məlumatına görə, indiyə kimi quruma 1950-dən çox müraciət daxil olub. Müraciətlərin 1450-dən çoxu yerli, 500-dən çoxu xarici şirkətdəndir. Ümumi müraciətlərin 980-dən çoxu investisiya layihəsidir ki, onun da 48 faizi ticarət və xidmət, 22 faizi sənaye, 22 faizi kənd təsərrüfatı, 8 faizi isə tikinti, turizm, səhiyyə, təhsil və mədəniyyət sahələri üzrədir. Onu da qeyd edək ki, agentliyə müraciət edən sahibkarlara işğaldan azad edilmiş ərazilərin iqtisadi və investisiya potensialına dair ətraflı məlumat, peşəkar məsləhət xidməti, müvafiq dövlət qurumları ilə əlaqələndirmə, yerli tərəfdaşların tapılması istiqamətində dəstək və xidmətlər göstərilir.

Zəfərdən sonra Azərbaycan bəyan etmişdi ki, dost ölkələr işğaldan azad edilən ərazilərin bərpasında, buradakı layihələrdə iştirak edə bilərlər. Bu çağırışa ilk səs verən təbii ki, Türkiyə şirkətləri oldu. Məlumat üçün bildirək ki, bu gün Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında ən fəal iştirak edən də elə türk qardaşlarımızdır. 20-dən çox Türkiyə şirkəti Qarabağ və Şərqi Zəngəzurda 50-yə yaxın layihə icra edir ki, onların da ümumi dəyəri 4 milyard dollardır. Hazırda türk şirkətləri Toğana-Kəlbəcər-İstisu yolunun tikintisində iştirak edirlər. Bu yol başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Layihəni Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 3 nömrəli Magistral Yolların İstismarı MMC ilə Türkiyənin subpodratçı şirkətləri olan "Kolin İnşaat" və "Cingiz İnşaat" şirkətləri birgə reallaşdırır.

Təhsil Azərbaycanın milli prioritetlərindən biridir. Bu səbəbdən işğaldan azad edilmiş regionlarda da təhsilin inkişafına xüsusi diqqət verilir. Yeri gəlmişkən, xatırladaq ki, Qarabağda və Şərqi Zəngəzurda 300-dən çox məktəb ya tamamilə dağılmış, ya da ciddi təmirə ehtiyacı yaranmışdır. Bu məktəblərdə təhsil alan şagirdlərin sayı 50 mindən çox idi.

Hazırda regionda təhsil infrastrukturu sıfırdan yaradılır. Bu infrastrukturu yaradanlar arasında dost dövlətlər, o cümlədən Özbəkistan və Qazaxıstan da var. Özbəkistan hədiyyə olaraq Füzulidə 960 şagirdlik məktəb inşa edib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika və 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib.

Füzulidə daha bir tədris ocağı qardaş Qazaxıstan tərəfindən inşa olunub. 1,5 hektar ərazidə inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi 2024-2025-ci tədris ilindən qapılarını müəllim və şagirdlərin üzünə açıb. Bu mərkəzin işğaldan azad edilən ərazilərdə incəsənət təhsilinin başladığı ilk tədris ocağı kimi xüsusi əhəmiyyəti var. Doğma yurda dönmüş Füzuli sakinlərinin övladları Uşaq Yaradıcılıq Mərkəzində fortepiano, kanon, qarmon, tar, violin və rəqs ixtisasları üzrə tədrisə cəlb olunublar. Onlara sənətin sirlərini təcrübəli müəllimlər öyrədirlər.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə demişdir ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın əsl dostlarının kim olduğunu göstərdi. Axı müharibə dinc dövrdən fərqli olaraq həm də sınaq anıdır. O çətin günlərin sınağından üzüağ çıxaraq Azərbaycanın yanında olan ölkələrdən biri də Macarıstandır. Azərbaycanla Macarıstan arasında ikitərəfli əməkdaşlığın kökündəki dostluq, qardaşlıq münasibətləri ildən-ilə dərinləşir. Hələ 2021-ci il martın 10-da İlham Əliyevin Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonu videoformatda qəbul edərkən dediyi sözlər iki ölkə arasındakı səmimi dostluq münasibətlərini dəqiq xarakterizə edir: "Əminəm ki, Macarıstan şirkətlərinin də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bizimlə birlikdə çalışmaqla bağlı çoxlu imkanları olacaq".

Bəli, gün gəldi Prezidentin əminliyi təsdiqləndi. Macarıstanın "KEZS" şirkəti Cəbrayıl rayonunun Soltanlı kəndinin yenidən qurulması üçün "qollarını çirmələdi". Hazırda kəndin dirçəldilməsi işləri sürətlə aparılır. Bu ilin sonuna kimi kənd 6 mindən çox insanın yaşaması üçün hər cür şəraitə malik olacaq. Əsas nəqliyyat dəhlizi, logistik mərkəz, o cümlədən azad iqtisadi zonanın yaxınlığında yerləşməsi kəndin tikintisini şərtləndirən amillərdəndir. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev: "Planlaşdırmada kəndin işğaldan əvvəl mövcud olmuş nəqliyyat, yol-küçə şəbəkəsi, təbii landşaftı əsas götürülüb. Mümkün qədər bizim memarlıq ənənələrimizdən qidalanaraq həm yerli layihəçilərimiz, həm də macar dostlarımız Macarıstan dövlətinin müvafiq layihəçi şirkəti ilə birlikdə komitənin sifarişi ilə kəndin baş planını işləyiblər. Burada eyni zamanda çoxmənzilli binalar və beşmərtəbəli binalar inşa olunacaq. Kənddə yüksək səviyyədə xəstəxana, məktəb, inzibati bina və bir sıra digər sosial müəssisələr yaradılacaq".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



Azərbaycan.- 2025.- 27 fevral (№ 44).- S.10.